2017

# ELEKTRON İMZA TOKENİNDƏN İSTİFADƏ EDƏRƏK **E-GOV.AZ** PORTALINA DAXİL OLMAQ

İSTİFADƏÇİ TƏLİMATI

NRYTN MHM | Azərbaycan, Bakı, Dilarə Əliyeva küç. 185, AZ 1010

# Elektron imza Tokeninin kompüterə tanıdılması və lazım olan proqram təminatının quraşdırılması

*QEYD: Bu proses yalnız bir dəfə həyata keçirilir. Əgər artıq bir dəfə həyata keçirilibsə, birbaşa "***e-gov.az saytına giriş"** bölməsinə keçin.

1. USB Tokeni komputerə qoşun.
2. Token kompüterə qoşulduqdan sonra "My computer" (Мой компьютер) pəncərəsində avtomatik olaraq görqnəcək.




3. "es2003_160804" yazısının üzərində iki dəfə klik edərək proqramı işə salın.
4. Açılmış pəncərədə proqramın qurulması zamanı istifadə olunacaq dili seçib "OK" düyməsini sıxaraq növbəti pəncərəyə keçid alın.



5. Giriş pəncərəsində “Next” düyməsini sıxın.




6. Açılmış pəncərədə proqramın kompüterinizdə yüklənəcəyi qovluğu dəyişmək mümkündür. Yükləməni davam etmək üçün “Next” düyməsini sıxın.



7. Opsiyalar pəncərəsində heç bir şey dəyişmədən “Install” düyməsini sıxın.




8. Yükləmənin bitməsini gözləyin.



9. Yükləmə bitdikdən sonra “Finish” düyməsini sıxın.




## Sertifikatların kompüterdə qeydiyyata alınması

1. Proqram kompütерə yükləndikdən sonra “Start” (Пуск) menyusunu açıb, proqramlar siyahısından “EnterSafe” qovluğunda olan “ePass2003 Token Manager” proqramını işə salırıq.



2. Proqram açıldıqdan sonra, əgər token kompüterə düzgün qoşulubsa, Tokenlər siyahısında qoşulu olan seriya nömrəsini görmək mümkündür.




3. Sertifikatları qeydiyyata salmaq üçün "Login" düyməsini sıxın.



4. Açılmış pəncərədə PİN kodu daxil edərək "OK" düyməsini sıxırıq.




5. PİN kod düzgün yığılmadığı halda xəbərdarlıq ediləcəkdir. PİN kod 9 dəfə yalnış yığdıqdan sonra sertifikatlar bloka düşəcəkdir.



6. PİN kod düzgün yığıldığı halda sertifikatlar haqqında məlumatlar görünəcəkdir.




## E-gov.az portalına giriş

1. Tokenin kompüterə qoşulu vəziyyətində brauzerdə http://e-gov.az portalını açaraq, **PORTALA GİRİŞ”** düyməsini vurun.



2. Növbəti səhifədə **“Elektron imza ilə daxil olmaq”** bölməsini seçin.




3. Qarşınıza aşağıdakı kimi bir dialoq pəncərəsi çıxacaq. Bu pəncərədən sizə aid olan sertifikatı seçin və “OK” düyməsini sıxın.



4. Növbəti dialoq pəncərəsində parolu daxil edin və “Login” düyməsini sıxın.




5. Parolu daxil etdikdən sonra uğurla portala giriş etmiş olursunuz.

